# Ceyhun Bayramov ilə Mövlud Çavuşoğlu arasında telefon danışığı olub



Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov ilə Türkiyə Respublikasının xarici işlər naziri Mövlud Çavuşoğlu arasında telefon danışığı olub.

AZƏRTAC xəbər verir ki, telefon danışığı zamanı Türkiyədə çoxsaylı insan itkisinə səbəb olan dağıdıcı zəlzələnin nəticələrinin aradan qaldırılması istiqamətində görülən tədbirlər, habelə yaxın zamanlarda keçirilməsi planlaşdırılan Türk Dövlətləri Təşkilatının Zirvə Görüşünə hazırlıq məsələləri müzakirə edilib.

Nazirlər həmçinin bölgədə mövcud vəziyyət, o cümlədən qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

---

Azərbaycan. - 2023.- 25 fevral.- S.4.